# GÜNDOĞAR

QƏZET 1931 - Cİ İLDƏN ÇAP EDİLİR NEFTÇALA RAYON QƏZETİ 31 MART 2025 -Cİ İL, №3 (68077)





**Prezident İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsindən: "...Bizim təcrübəmiz uğurlu olmuşdur və onun uğurlu olması sübuta yetirilmişdir. Yəni biz öz resurslarımıza güvənirdik, biz suverenliyimizi və ərazi bütövlüyümüzü özümüz bərpa etdik və indi də gələcəyimizi özümüz qururuq. Hesab edirəm ki, bu, çox vacib bir nəticədir və bu, təkcə nəzəriyyə deyil, bu, Azərbaycanda baş verənlərdir..."**

## AZAD ELLƏRİMİZDƏ QURUCULUQ DAVAM EDİR



**Prezident İlham Əliyev: "Şuşanın əsl sahibləri qayıdıb, biz qayıtmışıq. Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mart ayının 27-də Şuşa və Ağdama səfər etmişlər. Şuşa səfərində əvvəlcə Şuşada tarixi Çöl Qala məscidinin və bulağının bərpadan sonra açılışında iştirak ediblər.

Bildirilib ki, Çöl Qala məscidi XIX əsrdə Şuşa şəhərində fəaliyyət göstərən 17 məsciddən biri olub. Bu tarixi abidə XIX əsrdə Kərbəlayi Səfixan Qarabaği tərəfindən inşa edilib.

Məsciddə yeni bərpa işlərinə 2023- cü ildən başlanılmış, Heydər Əliyev Fondu tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə icra edilib. Çöl Qala məscidinin yaxınlığında yerləşən və XIX əsrə aid olan Çöl Qala bulağı da bərpa edilib. Dördbucaqlı formada olan bulaq yaxınlıqdakı məscidlərin üslubunda inşa edilib. Bərpa prosesində bulağın orijinal memarlıq üslubu qorunub, strukturu möhkəmləndirilib və əvvəlki görünüşü özünə qaytarılıb.



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzində aparılan tikinti işləri ilə də tanış olublar.Təməli 2021-ci il noyabrın 7-də Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan bu tibb ocağı 90 çarpayılıqdır və 6 korpusdan ibarətdir.

Stasionar xidmət sahəsində terapiya, pediatriya, cərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Ambulator xidmət sahəsində isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, həmçinin klinik diaqnostik laboratoriya yaradılacaq.

Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin ərazisində, eyni zamanda, Gigiyena və Epidemiologiya Mərkəzi, yoluxucu xəstəliklər və hemodializ korpusları inşa olunub. Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar. Məscidin təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulub. Məscid tarixi şəhərdə modern memarlıq nümunəsi kimi göz oxşayacaq. Onun memarlıq həlli rəmzi xarakter daşıyır. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə məscidin forması 8 rəqəmini əks etdirəcək və bu, noyabrın 8-də Şuşanın işğalçılardan azad olunmasını, Zəfər Gününü simvolizə edəcək. Məscidin iki minarəsi isə 11 rəqəmini əks etdirəcək. Bu, Şuşanın və Qarabağın işğaldan on birinci ayda azad edilməsinin rəmzidir. Minarələrin hündürlüyü 72 metr olacaq. Şuşanın yuxarı hissəsində inşa edilən məscid həm də şəhərin ən uca yerində olacaq.

Məscidin layihələndirilməsini azərbaycanlı və italiyalı memarlar birgə həyata keçiriblər. Bu ibadət ocağının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Hazırda ərazidə dəmir beton, metal konstruksiya və elektrik işləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 27-də Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub. Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sarıcalı kəndində yeni inşa edilmiş fərdi yaşayış evlərində yaradılan şəraitlə tanış olublar, Sarıcalı kənd körpələr evi-uşaq bağçasının, Sarıcalı kənd tam orta məktəbinin binasının açılışında iştirak ediblər.14 sinif otağı olan 360 şagird yerlik məktəbdə təhsil prosesinin səmərəli şəkildə həyata keçirilməsi üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada laboratoriyalar, texnologiya, biologiya və informatika otaqları, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

**ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "XALQ BİR ÇOX XÜSUSİYYƏTLƏRİ İLƏ TANINIR, SAYILIR VƏ DÜNYA XALQLARI İÇƏRİSİNDƏ FƏRQLƏNİR. BU XÜSUSİYYƏTLƏRDƏN ƏN YÜKSƏYİ, ƏN BÖYÜYÜ MƏDƏNİYYƏTDİR".**



**Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli mart ayının 13-də Neftçala rayonunda Neftçala, Salyan, Biləsuvar, Hacıqabul rayonları və Şirvan şəhərindən olan vətəndaşları qəbul etmişdir. Qəbuldan öncə nazir Adil Kərimli və Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov Ümummilli lider Heydər Əliyevin Neftçala şəhərindəki abidəsi önünə tər çiçək dəstələri qoyaraq əziz xatirəsini ehtiramla yad ediblər. Qəbulda vətəndaşların, xüsusən şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə xüsusi diqqət göstərilib, obyektiv baxılması ilə bağlı nazirliyin məsul əməkdaşlarına tapşırıqlar verilib.**

*BEYNƏLXALQ QADINLAR GÜNÜ 8 MART*



⇨3

## Novruz bayramında şəhid ailələri ziyarət edilib





## Səyyar görüşlər davam edir



⇨4



***TƏNZİLƏ RÜSTƏMXANLI: "...Azərbaycanla Türkiyənin yüksək səviyyədə əməkdaşlığı, qardaşlığı, xarici siyasətdə birlikdə hərəkət etməsi Qarabağ zəfərinə gətirdi. Türk Dövlətləri Təşkilatının çox sürətlə formalşamasında bu zəfər təməl daşı rolunu oynadı..."***

# ƏMƏLİNİN İŞIĞINDA TANINAN XANIM - NEFTÇALANIN İLK QADIN DEPUTATI - TƏNZİLƏ RÜSTƏMXANLI

**Yaşadığımız ömürdə çox insanlarla tanış olur, bəzən yaxından, bəzən uzaqdan onların fəaliyyətini izləyir, xidmətlərinin şahidi oluruq. Görülən iş, gedilən yol – insan haqqında çox sözü ifadə edir. Uluların yaddaşından "Tikdim ki, izim qala!" - ifadəsini xatırlayırıq. Həyatda faydalı olmaq isə məncə çox insanın ən ilkin arzusu, istəyidir. Bu mənada tariximizə bağlanır, bu günümüzdən dünənimizə ötüb keçən illərin yaddaşından örnək alır, bu yollarda əməli ilə tanınan insanlarımızı yad edirik. İnsanı insan edən əməl isə mütləqdir ki, hansı tərəfdən baxsan yola işıq salacaq, səni tanıdacaq, səni məhz məqsəd və amalın ilə ətrafına təqdim edəcəkdir. Elə əsas da məhz budur. Necə deyərlər "Yüz eşitməkdənsə, bir dəfə görmək!"...**

Rayonumuzun ilk qadın deputatı olan Tənzilə Rüstəmxanlı haqqında yazmaq, onun həyata keçirdiyi işlərə "Gündoğar"ın yaddaşında da bir qaynaq yaratmaq istəyi ilə bu fəaliyyətə nəzər saldım. Milli Məclisə son seçkilərdən keçən müəyyən zaman öz sözünü deməkdədir. Seçki mərhələsində fərqli mövqeyimiz, üzvü olduğumuz partiyalarımızın fərqli olmasına baxmayaraq, bu gün görülən xidmət el-oba üçün, Vətən üçün, yurdum üçündürsə, eyni zamanda insana fərəh verirsə - onu işıqlandırmaq əlbəttə ki, vacibdir. Bu məqsədlə mart ayının 13 - də rayonda vətəndaşları qəbul edərkən Tənzilə xanımla görüşdüm və elə ilk görüş, onun səmimi ünsiyyəti bu inamımda yanılmadığım qənaətini verdi.

İnformasiyanın daha geniş və sürətli olduğu bu günümüzdə fikir bildirmək, sosial şəbəkələrdən fərqli olaraq qəzet üçün daha böyük məsuliyyətdir. Qalıcı, dəyişməyən xidməti ilə, yaddaşı ilə təbliğ etdiyi hər bir mövzusunun, səhifəsinin məsuliyyətini unutmayan "Gündoğar" qəzeti rayonumuzun ilk qadın deputatı olan Tənzilə Rüstəmxanlının fəaliyyətini təbliğ etməklə eyni zamanda inanır ki, bu fəaliyyətin davamı gələcəkdə daha uğurlu layihələrdə artan xətlə davamlı olacaqdır.Və biz də sevə-sevə işıqlandıracağıq.

Tənzilə xanım Rüstəmxanlı 28 noyabr 1960-cı ildə Qərbi Azərbaycanın Amasiya rayonunda anadan olmuşdur. Doğma kəndi Əzizbəyovdan ailə vəziyyəti ilə əlaqədar 1969-cü ildə respublikamızın Balakən rayonuna, Qəzbinə kəndinə köçdüklərindən ilk təhsilini də elə burada almışdır.Təhsilini davam etdirən Tənzilə xanım 1980 – ci ildə Bakı Ticarət texnikomunu, daha sonra 1991-ci ildə Moskva Kooperativ İnstitutunun Bakı filialını iqtisadçı ixtisası üzrə bitirmişdir. 2012-ci ildə BDU-də Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır. Bu illərdə müxtəlif vəzifələrdə, məsul işlərdə çalışsa da, Tənzilə xanımı ictimai xadim olaraq daha çox 1996 - cı il may ayının 3 - dən seçildiyi Azəri Türk Qadınlar Birliyinin sədri kimi görürük. Bu günə qədər bu sahədə olan dəyərli fəaliyyəti hər iki qardaş ölkə tərəfindən yetərincə qiymətləndirilmişdir. Bu birliyin Azərbaycan ilə yanaşı Türkiyə, İsveç, Kanada, ABŞ, Şotlandiya, Almaniya, Qazaxıstan, Türkmənistan, Özbəkistan və digər ölkələrdə təmsilçilərinin də olması fəaliyyətin nə qədər geniş, eyni zamanda məsuliyyətli olmasından xəbər verir. Bu sahədə uzunmüddətli xidməti ilə Tənzilə xanım bir çox beynəlxalq konfranslarda iştirak edərək Dünya AZƏRBAYCANLILARI Konqresində sədrin Türk dünyası üzrə müşaviri vəzifəsini layiqincə təmsil etmişdir.Türk Dünyası Araşdırmaları Vəqfinin Türk dünyasına xidmətlərinə görə fəxri fərman və mükafatlarına layiq görülən Tənzilə xanım bu böyük və dəyərli xidmətlərinə bir də rayonumuzun deputatı olaraq təmsil etmək fəaliyyətini əlavə etmişdir. Və bu gün Azərbaycanımızın gündoğarından tariximizə yeni səhifələr yazmaq üçün bizimlədir...

2024 - cü ilin 1 sentyabr tarixində keçirilən seçkilərdən sonra, qazandığı məsuliyyətli yol Tənzilə xanımın qarşısına yeni və çox vacib işlər qoyurdu. Eyni zamanda xeyirxah işlər üçün geniş üfüqlər açdı. Bu vaciblik ilk olaraq ona olan etibarın, inamın çiçəklənməsi, ürəklərdə qol-budaq açması idi. Görülən işlərə nəzər saldıqca insan düşünür ki, fəaliyyət üçün də gərək gücün olsun. Bu gücü qoruyan, daim qüvvət verən ürəyin, can yanğın olsun. Bu işlər içərisində diqqətimi çəkən, eşidəndə könlümdə rahatlıq duyğusu yaradan anlar çox oldu. Onları bu gün oxucularımızla bölüşməklə hər birimizin bu yolda az və yaxud çox da olsa dəstəyinin olmasının vacibliyini də bir daha vurğulamaq istəyirəm. Çünki xalqı da, milləti də, bir toplumu da güclü edən – onun birliyidir. Elə görülən işlərdən danışarkən bu birlik yolunda, azadlıq, mübarizə üçün bütün ruhu, varlığı ilə xalqına bağlı olan İstiqlal şairimiz, Xalq şairi, Azərbaycanın Milli Qəhrəmanı şəhid Təbriz Xəlilbəylinin atası Xəlil Rza Ulutürkün doğulduğu Pirəbbə kəndində büstünün təmirindən başlamaq istərdim. Milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində görülən bu xidmət təqdir olunmağa layiqdir!

Tənzilə xanımın bu günə qədər rayonumuzda gördüyü xidmətlər sırasında deyərdim ki, Qoltuq məscidinin əsaslı təmir edilməsi, Qədimkənd orta məktəbində 100 – dən çox pəncərənin yenilənməsi, Neftçlanın Futbol komandasının idman və geyim ləvazimatları ilə təmin edilməsi, Boyat, Xıllı, Dördlər, Astanlı, Ballıcallı kəndləri üçün "Bankomat" qurulması, II Qaralı kəndində 2-3 km. yolun asfaltlanması, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun Həsənabad qəsəbəsində yaşayan valideynlərinə ev tikintisində yaxından köməklik göstərilməsi, Boyat və Ballıcallı kənd məzarlığı istiqamətində yolun təmir edilməsi, Həsənabad qəsəbəsində mərkəzi yola paralel 2-ci avtomobil yolunun çəkilməsi, Həsənabad qəsəbəsində Şəhidlər parkında 70-dən çox ağac kolları əkilməsi, Qırmızıkənd kənd yolunun bir hissəsinin təmir edilməsi, həmçinin Kürkənd kəndində Peşə məktəbi istiqamətində yolun təmir edilməsi həyata keçirilmişdir. Bunlardan əlavə olaraq mütəmadi şəhid ailələrinə olan diqqət də xüsusi qeyd edilməlidir. Neftçala şəhərində iki şəhidin adı verilmiş küçələrdə lövhə vurulması, M. Ə. Rəsulzadə küçəsində yaşayan qazi Namik Hüseynovun evinin dam örtüyünün təmir edilməsi, Mirzəqurbanlı kəndində yaşayan qazi Sərvər Qurbanovun işlə təmin edilməsi, Asəf Mütəllimov küçəsində yaşayan az təminatlı N. Abdullayevanın işlə təmin edilməsi həyata keçirilmişdir. Həyata keçirilmiş işlər sırasında ağır kəllə-beyin travmalı xəstə Aqil Nəcəfov üçün Türkiyədən həkim dəvət etmiş, xəstənin müalicə xərclərini ödənilməsini təmin etmişdir. Tənzilə xanımın diqqət və qayğısı ilə 2024-ci ilin dekabr ayında 145 (Şəhid ailəsi, az təminatlı, qazi ailələrinə) yardım edilmişdir. Novruz bayramı ərəfəsində yenə də 121 nəfərə bayram sovqatı (ərzaq səbəti) verilmişdir.









8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə Neftçala Rayon İcra Hakimiyyəti tərəfindən təşkil edilmiş tədbirdə iştirak edən Tənzilə xanım Azərbaycan qadınlarını təbrik edərək Şəhid analarına hədiyyəsi ilə dəqqət və qayğısını bildirmişdir. Əlbəttə ki, sadalanan faktlar görülmüş işlərin bir qismini ifadə edir. Deputat funksiyasının icra edərkən, insanların hüquqi baxımdan mənafeyini ifadə etməklə yanaşı, xüsusilə, vurğulamaq istərdim ki, bu qədər həssaslıqla insanlara xidməti Tənzilə xanımın bir ana, xanım olaraq yanaşma tərzindən irəli gələrək daha tez öz həllini tapmasına, çətinliklərin həllinə səbəb olmuşdur.

Rayon əhalisi ilə keçirilən müntəzəm qəbullar Tənzilə xanımı gələcəkdə də hansı istiqamətlərdə fəaliyyətini genişlndirmək niyyətini müəyyənləşdirir. Belə ki, tələb və təkliflərə bağlı olaraq yaxın zamanlarda artıq müəyyən işlərin də həyata keçirilməsi planlaşdırılmışdır.

Bu gün əhalinin təklifləri əsasında bir sıra işlərin görülməsi üçün də artıq zəmin yaradılmışdır ki, bu işlər də yaxın zamanda həyata keçəcəkdir. Bunlar əsasən, Xolqaraqşlı kəndində 30 min əhaliyə xidmət göstərəcək yeganə xəstəxananın əsaslı təmir olunması, Yuxarı Qaramanlı kəndində 1450 metr yolun asfaltlanması, həmin kənddə məktəb yolunun 1 km. məsafədə asfaltlanması, Qədimkənd kəndində mərkəzi yolun 3-4 km məsafədə asfaltlanması, Həsənabad qəsəbəsinin su təchizatının yenidən qurulması işləri, həmçının qəsəbə məktəbinin təmir olunması, Yeniqışlaq və Qaravəlli kəndlərinin qazlaşdırılması istiqamətində rəsmi müraciətin edilməsi, həmçinin Xol zonası üzrə iki "Bankomat"ın quraşdırılması işləri də həyata keçmək üzrədir.

→ 3

# BAYRAMINIZ MÜBARƏK, ƏZİZ QADINLAR!

**8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik**
05 mart 2025, 18:05

**Hörmətli xanımlar!**

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan qadınları hər zaman cəmiyyətimizin mənəvi dayağı olmuş, daim ülvi amallarla yaşamışlar. Çoxəsrlik mədəni-mənəvi sərvətlərimizin günümüzədək layiqincə qorunub saxlanılmasında nəcib və gözəl analarımızın misilsiz xidməti vardır. Onlar öz güclü iradələri, vətənpərvərlik və fədakarlıqları ilə yurdumuzun mübarizə salnaməsində silinməz izlər qoymuşlar.

Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlif istiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur, öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

Ötən müddət ərzində milli dövlət quruculuğu prosesində yaxından iştirak edərək bütün sahələrdə əzmlə çalışan qadınlarımız Vətənimizin qüdrətinin artırılması, xalqımızın rifahının yüksəlməsi naminə dolğun və səmərəli fəaliyyət göstərmiş, sosial-iqtisadi və mədəni inkişafda mühüm nailiyyətlər əldə etmişlər.

Müqəddəs ailə dəyərlərimizə dərin sədaqət nümayiş etdirən qadınlarımız ölkəmizin ictimai həyatında böyük nüfuza malikdirlər. Əminəm ki, onlar gənc nəslin Vətənə və milli ideallara bağlılıq ruhunda yetişməsi üçün bundan sonra da qüvvələrini əsirgəməyəcək, həmçinin ictimai-mənəvi mühitimizi yeni töhfələrlə zənginləşdirəcəklər.

Əziz xanımlar!

Bayramınız mübarək olsun!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 mart 2025-ci il

8 MART

*Hörmətli xanımlar, analar və bacılar!*

Azərbaycan qadınları xalqımızın taleyində hər zaman mühüm rol oynayıb. Azərbaycan qadınlarından cəsur və qorxmaz sərkərdə, müdrik hökmdar, istedadlı şairə və sənətkar qadınlarımızın adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə həkk olunub. Qadınlarımız hər zaman elm, təhsil, səhiyyə, idman və digər sahələrdə öz istedad və bacarıqları ilə Azərbaycanımızın adını həm ölkə daxilində, həm də xaricdə ucaldıblar. Ağır sınaqlardan alnıaçıq, üzüağ çıxan Azərbaycan qadını bu gün də öz missiyasını şərəflə yerinə yetirir, övladlarını vətənə sevgi, torpağa və xalqa sədaqət ruhunda tərbiyə edir.

Qarabağ uğrunda, Aprel döyüşləri, Vətən müharibəsi və lokal antiterror əməliyyatları zamanı onların yetişdirdikləri övladlar, 30 ilə yaxın müddətdə düşmən tapdağında olan torpaqlarımızı azad edərək, xalqımızın torpaq həsrətinə son qoydular. Vətən uğrunda canlarından keçən şəhidlərimizin qanı yerdə qalmadı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban edən qəhrəman qardaşlarımızın anaları və ailə üzvləri başda olmaqla, rayonumuzun bütün xanımlarını təbrik edirəm.

Neftçala rayonunda yüzlərlə qəhrəman şəhid və qazi yetişdirən fədakar analarımıza möhkəm can sağlığı arzulayıram.

Sizi 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, can sağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək!

Mirhəsən Seyidov
Neftçala Rayon İcra Hakimiyyətinin başçısı
Neftçala rayonu, 5 mart 2025-ci il












**7 mart 2025 -ci ildə Neftçala rayonunda 8 Mart Beynəlxalq Qadınar Günü və mübarək Ramazan ayı ilə əlaqədar olaraq Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə xanımlar üçün iftar süfrəsi təşkil olunub.**

**Tədbirdə Neftçala RİH-nin başçısı Mirhəsən Seyidov, Milli Məclisin deputatları Tənzilə Rüstəmxanlı və Günay Ağamalı, Qafqaz Müsəlmanları İdarəsinin Neftçala rayonu üzrə qazisi Hacı Hüsnü Həsənov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbənin müdiri Sənan Xəlilov, RİH məsul şəxsləri, hüquq- mühafizə orqanlarının rəhbərləri, din xadimləri, şəhid ailələri, rayonun ictimai - siyasi, sosial mədəni həyatında aktiv iştirak edən xanımlar iştirak ediblər.**

**Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Milli Məclisin deputatları Tənzilə Rüstəmxanlı, Günay Ağamalı, şəhid Camal İsmayılovun anası Filarə İsmayılova, qabaqcıl təhsil işçisi Ruhəngiz Nəcəfova 8 Mart Beynəlxalq Qadınlar Günü və Ramazan ayı münasibətilə bütün xanımları təbrik ediblər. Qadınlara cəmiyyətimizdə verilən yüksək dəyər geniş şəkildə ifadə edilib. Ümummilli Lider Heydər Əliyevin, Prezident İlham Əliyevi bu istiqamətdə diqqəti, qayğısı vurgulanıb.**

**Tədbirin sonunda bir qrup fəal xanımlar fəxri fərman və təşəkkürnamə ilə təltif edilib.**











**5 mart 2025-ci ildə Bakı şəhərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik ili" çərçivəsində "8 Mart Beynəlxalq Qadınlar Günü" münasibətilə tədbir keçirilib.Tədbirdə respublikamızın bütün şəhər və rayonlarından olduğu kimi, Neftçala rayonundan da şəhid ailə üzvləri ilə yanaşı ictimai fəallığı ilə seçilən bir qrup xanım nümayəndə iştirak edib.**

2 ←

## ƏMƏLİNİN İŞIĞINDA TANINAN XANIM – NEFTÇALANIN İLK QADIN DEPUTATI - TƏNZİLƏ RÜSTƏMXANLI

Tənzilə xanım ona olan müraciətlərin, xüsusilə, işsizlik olması istiqamətində də narahatlığını ifadə edir. Bu istiqamətdə hazırlanmış təkliflər paketi də maraqlıdır. Əlbəttə ki, gələcəkdə Tənzilə xanımın görmək istədiyi kimi əraziyə uyğun olaraq Neftçala rayonunda "Neftayırma zavodunun tikintisi"nin reallaşması, bu istiqamətdə "Dəniz limanının", "Vağzal stansiyası"nın yaradılması işlər də həyata keçərsə, əhalinin müəyyən hissəsinin işlə təminatında müsbət dönüş yarana bilər. Digər təkliflər sırasında isə rayonumuzda "Duz zavodu"nun tikintisi təklifini görürük. Bu da maraqlı layihə ola bilər.Təkliflər, arzular çoxdur. Bu təkliflər sırasında rayonumuzda "Radiozavod", "Toxuculuq", "Tekstil" fabriklərinin tikintisi də var. Rayon təbiətinə, əlverişli coğrafi mühitinə uyğun olaraq "Kilkə unu istehsal edən" kiçik zavodun tikintisi, Şirvanlı kəndi istiqamətində "Turizm-istirahət mərkəzi"nin yaradılmasının da rayon üçün xeyirli olacağı düşünülərək təkliflər sırasında qeyd edilmişdir..

Xeyir işlər görmək insanlığın adına yaraşır, bu işin o qədər dərin təsiri, yaddaşlarda oyatdığı təsir gücü vardır ki, bu təsir zamanın yaddaşında yaşayır. Ağızdan-ağıza xalq şüurunda dolaşır daim. Biz də "GÜNDOĞAR" redaksiyası olaraq bu yolda hörmətli deputatımız, Neftçalamızı Azərbaycanımızla birlikdə Türk dövlətlərində təmsil edərək vacib əlaqələr yaradan, iş birliyi quran Tənzilə xanım Rüstəmxanlıya uğurlar diləyirik. Görülən işlərin davamlı işığını görmək isəyilə, Tənzilə xanım, işləriniz avand, yolunuz açıq olsun.

*Bədirə NİFTALİYEVA*

# 5 MART BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN GÜNÜDÜR!




Neftçala Rayon İcra Hakimiyyətinin və Neftçala rayon gənclər və idman sektorunun təşkilatçılığı ilə Neftçala rayonunda 5 mart Bədən tərbiyəsi və İdman Günü qeyd olunub, idmançılar və onların müəllimləri ilə görüşülüb.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının, Neftçala rayon gənclər və idman sektorunun rəhbərləri, idmançılar və onların müəllimləri iştirak edib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb və ehtiramla yad edilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların, dünyasını dəyişən idmançıların ruhu bir dəqiqəlik sükutla yad olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli Sərəncamı ilə hər il 5 mart tarixi ölkə ərazisində "Bədən tərbiyəsi və idman Günü" kimi qeyd edilməkdədir.

Bu əlamətdar tarixi günün 5 mart tarixində qeyd edilməsi təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri, mükafatçıları ilə görüşüb və İdman Fondunu təsis edib, həmçinin bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub.

RİH-in başçısı qeyd edib ki, Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin bütün regionlarında, o, cümlədən doğma Neftçalamızda da idman arenalarının, müasir komplekslərin tikilərək yeniyetmələrin, gənclərin ixtiyarına verilməsi ölkəmizdə böyük idmançı ordusunun formalaşmasına zəmin yaradıb. Bildiyiniz kimi, 18 aprel 2023-cü il tarixdə ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Neftçala rayonuna tarixi səfərləri zamanı açılışı olan Neftçala Olimpiya İdman Kompleksinin açılışı olub. Bu Olimpiya İdman Kompleksində yeniyetmə və gənclərimizin hərtərəfli inkişafının təmin olunması, onların fiziki və mənəvi cəhətdən sağlam böyüməsi üçün geniş imkanlar yaradılıb. Burada fəaliyyət göstərən idman bölmələri, məşq zalları, əhalinin asudə vaxtının səmərəli təşkili üçün zəruri yerlər insanlarımızın sağlam həyat tərzi üçün mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda bu kompleks müxtəlif rayon və respublika əhəmiyyətli tədbirlərə də ev sahibliyi etmiş, bir sıra müsabiqə və yarışların təşkili üçün burada şərait yaradılıb.



Tədbirdə çıxış edənlər ölkə rəhbəri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə idmanın və bədən tərbiyəsinin inkişafı istiqamətində ardıcıl olaraq görülən tədbirlər, idmana olan xüsusi diqqəti və qayğı, idmançılara xüsusi həssaslıqla yanaşması, yeni olimpiya idman komplekslərinin və idman bazalarının yaradılması haqqında qərarları bu sahədə hər kəsi səfərbər edir. Elə bunun nəticəsidir ki, idmançılarımızın dünya çempionatlarında, olimpiya oyunlarında uğurları getdikcə artmaqdadır. Azərbaycan idmanının tərkib hissəsi olan Neftçala rayon idmançıları da yaradılan şəraitdən yararlanaraq respublika və dünya çempionatlarında idmanın müxtəlif növləri üzrə yüksək nailiyyətlər əldə edirlər.

Tədbirin sonunda bir qrup neftçalalı idmançılar fəxri fərman və xatirə hədiyyələri ilə təltif olunublar.

İdmançılar və onların müəllimləri onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse- prezident Mehriban xanım Əliyeva öz təşəkkürlərini bildiriblər.

# *PROBLEMLƏRİN HƏLLİ, ƏHƏMİYYƏTLİ TƏKLİFLƏR ÜÇÜN BİRLİKDƏYİK -- SƏYYAR GÖRÜŞLƏR DAVAM EDİR*

Rayon ərazisində vətənaşlarla görüş mart ayında da davam etmişdir. Novruz bayramına qədər rayonun Qədimkənd kəndində, Boyat kəndində, Kürkənd kəndində sakinlərlə görüş keçirilmişdir. Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak ediblər.

Təşkil olunan hər bir görüşdə Ulu Öndər Heydər Əliyevin, Vətən uğrunda can fəda edən şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib. Görüşlərdə ay ərzində əlamətdar günlərlə bağlı məlumat da verilmişdir. Belə ki, görüşlərdə çıxış eənlər ***"Gənc nəslin fiziki və mənəvi inkişafı, güclü dövlətin təminatıdır!" mövzusunda,*** **"Azərbaycan qadını fədakarlıq və ləyaqət nümunəsidir" mövzusunda, "Novruz mənəvi, əxlaqi dəyərlərimizin aynasıdır" mövzusunda** iştirakçılara məlumat veriblər.

Görüşlərdə çıxış edən Neftçala rayon İH-nın başçısı Mirhəsən Seyidov günün tələbləri haqqında, nail olduqlarımız və qarşıda olan vəzifələr, görüləcək işlər haqqında ətraflı məlumat verib. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyə yenidən qayıtdıqdan qısa müddət ərzində resbublikamızda bədən tərbiyəsi və idmanın inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilib. Uşaq və gənclərin hərtərəfli inkişafında bədən tərbiyəsi və idmanın rolunu yüksək qiymətləndirən Ümummilli Lider deyirdi: ***"Bizim gələcəyimiz gənclərə məxsusdur. Biz bu gün yaşayırıq. Bu gün dövləti, milləti idarə edirik, amma sabahı düşünməliyik. Gələcək üçün biz sağlam gənclik hazırlamalıyıq. Fiziki cəhətdən sağlam, mənəvi, əqli cəhətdən sağlam, düşüncəli gənclər hazırlamalıyıq".***

RİH-in başçısı, Zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni geosiyasi reallıqlar fonunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi ədalətin bərpa edilməsi konsepsiyasının davamının məcburi köçkünlərin və qaçqınların "Böyük Qayıdış"ını təmin etmək olduğunu bildirib. O, həmçinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərini və haqqını bərpa etmək missiyasının önəmindən danışıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə bununla bağlı ciddi tapşırıqlar verdiyini vurğulayıb. Həmçinin, Azərbaycan xalqının haqqının bərpa olunması və Qərbi Azərbaycan İcmasının hüquqlarının beynəlxalq səviyyədə tanıdılması istiqamətində ölkə rəhbərinin sərgilədiyi mövqeyin tarixçilər və hüquqşünaslar üçün ciddi vəzifələr qoyduğunu qeyd edib.

Səyyar qəbul zamanı vətəndaşlar, özünüməşğulluq proqramına qoşulma, ünvanlı sosial yardımın alınması ilə əlaqədar yaranan çətinlik, məişət tullantıların ərazidən daşınması, kənd ərasizisində elektrik təsərrüfatının yenilənməsini, örüş torpaq sahəsinin ayrılması, xəstəliyi ilə əlaqədar köməklik və digər məsələlər üzrə müraciətlərini bildiriblər və digər məsələlər üzrə müraciətlərini irəli sürüblər. Vətəndaşların müraciətləri ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə edilib və həll olunması üçün aidiyyəti üzrə tapşırıqlar verilib. Bildirilib ki, vətəndaş məmnunluğunu artırmaq və xidmət keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək məqsədilə vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan **"Rəqəmsal İcra Hakimiyyəti"** https://rih.gov.az portalına daxil olaraq müraciət edə bilərlər.

# 2025 - ci il AZƏRBAYCAN RESPUBLİKASİNDA "KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ"DİR!

## "Azərbaycan Respublikasının Konstitusiyası və suverenliyinin bərpası Ulu Öndər Heydər Əliyev ideyalarının və müdrikliyinin təntənəsidir" mövzusunda dəyirmi masa keçirilib

19 mart 2025-ci il tarixdə "Konstitusiya və Suverenlik ili" çərçivəsində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Neftçala Rayon İcra Hakimiyyətində "Azərbaycan Respublikasının Konstitusiyası və suverenliyinin bərpası Ulu Öndər Heydər Əliyev ideyalarının və müdrikliyinin təntənəsidir" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şaiq Məmmədov, Rayon İcra Hakimiyyətinin, rayonun hüquq-mühafizə orqanlarının məsul əməkdaşları, inzibati ərazi dairəsi üzrə nümayəndələr iştirak edib.

Tədbirdə Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şaiq Məmmədov açaraq Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 fevral tarixli 477 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nda nəzərdə tutulan tədbirlərin icrasını təmin etmək məqsədilə "Konstitusiya və Suverenlik ili" çərçivəsində Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbənin 5-ci ildönümü, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası münasibətilə, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi, cəmiyyətdə hüquq mədəniyyətinin inkişafı, insan hüquq və azadlıqlarının qorunması, geniş təbliği məqsədilə rayon ərazisində həyata keçirilən zəruri tədbirlər və maarifləndirmə işləri barədə geniş məlumat vermiş



və sözü tədbirin aparıcısı Cəngan kənd tam orta ümumtəhsil məktəbinin tarix müəllimi Şəhrəbanu Əhmədovaya təqdim edib.

Şəhrəbanu Əhmədova "Azərbaycan Respublikasının Konstitusiyası və suverenliyinin bərpası Ulu Öndər Heydər Əliyev ideyalarının və müdrikliyinin təntənəsidir" mövzusunda geniş məruzə ilə çıxış edib.

Daha sonra Neftçala Rayon Prokurorunun böyük köməkçisi İsmayıl Məmmədli, Neftçala Rayon Polis şöbəsi rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi Valeh Hətəmov, Neftçala Rayon Məhkəməsinin hakim köməkçisi Ziya Yusifzadə, Neftçala Rayon Yanğından Mühafizə Hissəsinin 110 nömrəli Yanğından Mühafizə Bölməsinin rəisi Gülhüseyn Nəcəfov, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftalıyeva çıxış edərək, Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının tarixi zərurətdən yarandığını və banisinin Ulu Öndər Heydər Əliyev olduğunu diqqətə çatdırıblar. Eyni zamanda bildiriblər ki, Ulu Öndər müstəqil Azərbaycan dövlətinin qurucusu olduğu kimi, onun milli ideologiyası – azərbaycançılığın da, ilk Konstitusiyanın da banisidir. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük xidmətlərindən biridir. Çıxışçılar eyni zamanda qeyd ediblər ki, ötən müddət ərzində ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi müasir Azərbaycan tarixinin ən mühüm hadisəsinə çevrildi. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində əldə edilmiş Zəfər, eləcə də, 2023-cü il sentyabrın 19 və 20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı sayəsində ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu isə həm də o demək idi ki, artıq Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar olub.

Daha sonra tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

# *NOVRUZ BAYRAMINIZ MÜBARƏK!*





***ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "... Novruz bayramında adətən insanlar istəyirlər ki, dərddən-qəmdən xilas olsunlar, dərddən-qəmdən uzaqlaşsınlar, ya da bundan sonra dərd-qəm olmasın. Hamıya arzu edirəm ki, bu il, bu bayramdan sonra heç kəsin dərdi-qəmi olmasın. Olsa da elə olsun ki, insanlar o dərdi-qəmi, kədəri keçirə bilsinlər.***

***Amma yenə də xalqımızın, millətimizin ümummilli, ümumxalq dərdi, qəmi vardır. O da Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən pozulması, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində torpaqlarımızın böyük bir qisminin işğal olunmasıdır, işğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşlarımızın didərgin düşməsi və ağır vəziyyətdə yaşamasıdır. Bu, bizim ümumi qəmimiz, dərdimiz, kədərimizdir. Ancaq bu dərdi çəkərək biz heç də sınmırıq, ağlamırıq, inildəmirik. Biz bu dərdi mərdliklə, dəyanətlə çəkirik. Eyni zamanda çalışırıq və çalışacağıq ki, bu dərddən-qəmdən xilas olaq. Əminəm ki, biz bundan xilas olacağıq.***

***Ancaq indi bu bayramı çadırlarda keçirənlər də vardır. Evini-eşiyini itirmiş, ayrı-ayrı yerlərdə əlverişsiz şəraitdə yaşayanlar da vardır. Mən şübhə etmirəm ki, - bu da bayramın xüsusiyyətidir, - hər bir çadırda bu gecə şam yandırılıbdır, bayram yeməyi bişirilib, bayram keçirilibdir. Əvvəl mən bunu dedim ki, xalqımız ən ağır zamanlarda, ən ağır yaşayış şəraitində bu bayramı edibdir. İnanıram ki, bu gün qaçqınların və köçkünlərin məskunlaşdıqları çadır şəhərciklərində də belə bayram əhval-ruhiyyəsi vardır.***

***Onlar da sizin kimi, hamımız kimi çalırlar, oynayırlar, bayram edirlər. Çünki bu, bizim millətimizin xüsusiyyətidir - sınmamaq, əyilməmək, dərdə dözümlü olmaq. Bəli, bizim millətimiz məğrur, cəsur, qəhrəman millətdir. Bizim millətimiz eyni zamanda çox dərdə dözümlü millətdir. Bunların hamısı ilə birlikdə, bizim millətimiz öz iradəsinə inanan və öz məqsədlərinə nail olmağa inanan millətdir. Bunları deyərək, bunları hər gün hiss edərək mən sizə və bütün Azərbaycan vətəndaşlarına deyirəm ki, bu günlər çadır şəhərciklərində yaşayan insanlar da bayram edirlər.***

***Mən sizin hamınızı təbrik edirəm. Ancaq o soydaşlarımızı xüsusi təbrik edirəm. Onlara bir daha bildirirəm ki, bizim apardığımız işlər, həyata keçirdiyimiz tədbirlər, - bu işləri ardıcıl aparırıq, - Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunmasını, respublikamızın ərazi bütövlüyünü təmin edəcək, işğal olunmuş torpaqlardan didərgin düşmüş insanlar öz elinə-obasına qayıdacaq və o gün gələcəkdir ki, o yerlərdə bayram tonqalı yandıracaqdır, bayram şənlikləri, yığıncaqları keçiriləcəkdir. O yerlərdə hər kəs öz evində bayram axşamı plov, paxlava bişirəcəkdir, bayramı öz evində edəcəkdir..."***

➡6

**28 MART AZƏRBAYCAN TƏHLÜKƏSİZLİK ORQANLARI ƏMƏKDAŞLARININ PEŞƏ BAYRAMIDIR. RESPUBLİKAMIZDA BÜTÜN SAHƏLƏRİN İNKİŞAFINA, YÜKSƏLİŞİNƏ DİQQƏT VƏ QAYĞISINI ƏSİRGƏMƏYƏN ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 23 MART 1997 - Cİ İL TARİXLİ SƏRƏNCAMI İLƏ HƏR İL BU DƏYƏRLİ PEŞƏ SAHİBLƏRİNİN BAYRAMI QEYD EDİLİR. BİZ DƏ "GÜNDOĞAR" QƏZETİNİN OXUCULARI ADINDAN AZƏRBAYCAN TƏHLÜKƏSİZLİK ORQANLARINDA ÇALIŞAN BÜTÜN SOYDAŞLARIMIZI ŞƏRƏFLİ PEŞƏ BAYRAMLARI GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK EDİR, HƏR BİRİNƏ CAN SAĞLIĞI, FƏALİYYTLƏRİNDƏ NAİLİYYƏTLƏR DİLƏYİRİK.**




# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIM GÜNÜ




Mart faciəsi unudulmamalıdır. Hər il mart ayının 31-i Azərbaycanda dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir. Bu tarixi son yüz ildə Azərbaycanda baş vermiş faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Öz tarixini unudan xalq gələcəyini heç zaman möhkəm qura bilməz. Tarix böyu azərbaycanlıların kütləvi şəkildə öldürülməsi, repressiyalara məruz qalmasını XX yüzilliyin ən qanlı səhifələrindən biridir. 1918-ci il martın 30-31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırıma imza atmışlar. Bu soyqırımın əsl hüquqi-siyasi qiyməti isə Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra verilmişdir. Mart hadisələrinin 80-ci ildönümündə - 1998-ci il martın 26-da Ümummilli lider Heydər Əliyevin imzaladığı **"Azərbaycanlıların soyqırımı haqqında"** fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Fərmanda qeyd olunur ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır.

Tarixən qonşu dövlətlərə qarşı məkrli ərazi iddialarını gerçəkləşdirmək, "Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçiləri bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlmiş soyqırım, terror siyasəti həyata keçirmiş, dəhşətli cinayətlərə əl atmışlar. Faktlar göstərir ki, bədnam qonşularımız bu qeyri-hüquqi iddialarını reallaşdırmaq naminə təcavüzkarlıq siyasətini "milli mübarizə" yoluna çevirərək dövlət səviyyəsində dəstəkləmişlər. Bu zaman isə onlar müəyyən xarici qüvvələrin maraqlarının ifadəçisinə çevrilmiş, bəzi dövlətlər Cənubi Qafqaz və Qərbi Asiyada möhkəmlənmək üçün daim "erməni məsələsi"ndən öz mənafelərinə uyğun şəkildə istifadə etməyə çalışmışlar.

Tarixi faktlar sübut edir ki, hələ 1721-ci ildə Qafqaza yürüşə çıxan və iki il sonra Azərbaycanın Xəzəryanı ərazilərini, o cümlədən Bakını işğal edən I Pyotr yerli əhalinin sərt müqavimətini gördükdə, "erməni kartını" işə salmış, azərbaycanlıların tarixi torpaqlarında, xüsusilə Bakı və Dərbənddə ermənilərin məskunlaşdırılmasına göstəriş vermişdir. I Pyotrun xələflərinə ünvanladığı tarixi vəsiyyət isə təkcə Rusiya imperiyasının deyil, nəticə etibarilə bolşevik Rusiyasının da Cənubi Qafqaz siyasətinin əsasını təşkil etmişdir. Həmin vəsiyyətə ilk əməl edən II Yekaterina 1768-ci ildə imperiyanın ermənilərə məxsusi hamiliyi barədə fərman vermişdir. 1802-ci ildə isə çar I Aleksandr Qafqaz canişini A.Sisianova konkret təlimat göndərmişdir: Ermənilər nəyin bahasına olursa-olsun, Azərbaycan xanlıqlarının ələ keçirilməsində istifadə olunmalıdır".

Bu, Azərbaycan torpaqlarının işğalının başlanğıcı olmuş, **1813-cü ilin "Gülüstan" və 1828-ci ilin "Türkmənçay" müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi prosesini sürətləndirmişdir.** Türkmənçay müqaviləsindən dərhal sonra – 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" təşkil edilmişdir. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın faktiki təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, 2369 erməni yaşayırdı. Buna paralel olaraq Türkmənçay müqaviləsinin 15-ci bəndinə əsasən, İrandan 40 min erməni İrəvan, Qarabağ və Naxçıvana köçürülmüşdür. Analoji proses XIX əsrdəki Rusiya-Türkiyə müharibələrinin yekununda (1829, 1878) da özünü göstərmiş, Türkiyə ərazisindən təxminən 85 min erməni köçürülərək sözügedən bölgələrdə məskunlaşdırılmışdır. Bu proses, eyni zamanda, minlərlə azərbaycanlının doğma torpağından qovulması, qətlə yetirilməsi ilə müşayiət olunmuşdur.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqları ərazilərində məskunlaşdırılan ermənilərin orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə əslində azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı.

Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına bəraət qazandırmaq məqsədilə erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqaz tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edirdi.

Bütün bu vəhşiliklərə son qoymaq niyyəti ilə xaıqımız Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla 44 gün davam edən Vətən müharibəsində mənfur düşməni ərazilərimizdən qovdu. Haqq yolumuz zəfər çaldı. Lakin tarixi yerlərimiz İrəvan, Zəngəzur yenə düşmən tapdağında qalmaqdadır. Erməni xisləti isə heç zaman sülh və sakitlik şəraitində yaşamağa qadır deyildir.

Biz tarixi torpaqlarımızı şəhidlərimizin qanı, canı bahasına almışıq.Və bu torpaqlarda əbədi olaraq üçrəngli bayrağımız dalğalanacaq, xalqımız yaşayacaq və tarix boyu öz keçmişini unutmayacaqdır. Allah Vətən uğrunda candan keçən şəhidlərimizi, günahsız soyqırım qurbanlarını rəhmət eləsin.

# *NOVRUZ BAYRAMINIZ MÜBARƏK!*

5 ⟵

Neftçala Rayon İcra Hakimiyyəti və Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayonu üzrə nümayəndəliyinin təşkilatçılığı ilə əsrlərin sınağından çıxmış, ən qiymətli mənəvi dəyərlərimizi özündə birləşdirən, müsəlman dünyasının hər il böyük sevinc və təntənə ilə qeyd etdiyi qədim tarixi keçmişə malik Novruz bayramı böyük coşqu ilə qeyd olunub.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ağsaqqallar, şəhid ailələri və rayon ictimaiyyəti iştirak edib.

Tədbir Şirvan-Salyan Regional Mədəniyyət İdarəsinin Neftçala rayonu üzrə nümayəndəliyinin və Neftçala Peşə məktəbinin tələbələrinin Novruz bayramına həsr etdikləri adət - ənənələrimizi əks etdirən sərgiyə baxış ilə başlamış, sonra maraqlı konsert proqramı, Keçəl və Kosanın, Zəhmət baba və Bahar qızın bayram təbrikləri ilə davam etmişdir. Novruz bayramının ölkəmizdə dövlət səviyyəsində qeyd olunması Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə. adət-ənənələrimizə verdiyi yüksək qiymət, yaşatmaq istəyi heç zaman unudulmayacaqdır.

Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də adət-ənənələrin davam etdirilməsinə, qorunmasına xüsusi diqqət və qayğı göstərir. Artıq bayram tonqalları Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və uğurlu siyasəti nəticəsində işğaldan azad edilmiş ellərimizdə sevinclə qalanır, bayram əhval-ruhuyyəsi bütün ərazimizdə ruh yüksəkliyi ilə qeyd edilir. Eyni zamanda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da milli-mənəvi dəyərlərimizin qorunmasında, yaşadılmasında, təbliğ edilməsində böyük zəhməti vardır.

UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2009-cu il 28 sentyabr – 2 oktyabr tarixlərində keçirilən dördüncü sessiyası zamanı "Novruz" çoxmillətli nominasiya kimi, (Azərbaycan, Hindistan, Qırğızıstan, Pakistan, Türkiyə, Özbəkistan) UNESCO-nun Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Bütün xalqımızı, Neftçala rayon sakinlərini yeni gün, yeni il hesab etdiyimiz Novruz bayramının gəlişi münasibətilə təbrik edir, xoşbəxtlik, firavanlıq diləyirik.

BAYRAMINIZ MÜBARƏK OLSUN!

# POEZİYA ÇƏLƏNGİ - BİZİM YAZARLARDAN....

**ZÖHRAB PİRİOĞLU QƏMLİ**
**Neftçala rayonu, Qaraqaşlı kəndi**



**8 Mart - ANALARIN BAYRAMIDIR!**

Zəhmətinə məhəbbət,
Veribdir qanad sənə!
Halal olsun, ay ANA,
Yaraşır bu ad sənə!

Sən odlar torpağında dünyaya göz açmısan,
Əməlinlə, işinlə həmişə nur saçmısan.
İllərin qanadında arzulara çatmısan,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Müstəqil yurdumuzda yaxşıca ad-sanın var,
Neçə-neçə ürəkdə çağlayan saf qanın var.
Qəlblərin aynasında analıq ünvanın var.
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

İllərin qanadında ömür günü haqlayır,
Hörmətini bu yaşda cavan, qoca saxlayır,
Nəcibliyin, paklığın ürəklərdə çağlayır,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

İz salıb əməllərin bu ellərin yadında,
Görürük min şirinlik zəhmətinin dadında,
Bir əbədi həyat var, sənin müdrik adında,
Həsəd aparır bu gün, həm doğma, həm yad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Güc, əzəmət görürəm, yorulmayan biləkdə,
Dil açır əməllərin neçə arzu, diləkdə,
Çağlayır Vətən eşqi yumruq boyda ürəkdə,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Sən Həcər qeyrətlisən, Nigar dəyanətlisən,
Belə qoçaqlarım tək, sönməz, cəsarətlisən,
Analıq zirvəsində sonsuz məhəbbətlisən,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

İstərdim ki, həyatda silinməz izin qala,
Neçə-neçə könüldə sənin xoş üzün qala,
Ömürdən də, ay ana, doxsanın, yüzün qala,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Ucalıbdır şöhrətin bu odlar ölkəsində,
Belə görürəm səni-ucalıq zirvəsində.
Arzu dolu ümid var, Zöhrabın kəlməsində,
Həsəd aparır bu gün, həm doğma, həm yad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Sənin kövrək ömrünə o qırov birdən düşüb,
Anacan, nə tez belə saçlarına dən düşüb...
Elə bil ki, Qoşqarın zirvəsinə çən düşüb,
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!

Daim iş başındasan, yorulmaz insan kimi,
Ürəklərdə yerin var, sonsuz asiman kimi.
Zöhrabın qəlbindəsən, əsl Qəhrəman kimi!
Zəhmətinə məhəbbət veribdir qanad sənə,
Halal olsun, ay ANA, yaraşır bu ad sənə!
Yaraşır bu ad sənə.

**MƏMMƏD ƏBİLOĞLU**
**Neftçala rayonu,**
**Yuxarı Qaramanlı kəndi**



**Mahi - Ramazan xoş gəldin**

Mübarək mahi - Ramazan gəldi,
Tanrım bizə nəzər saldı,
Qəlbimiz nur ilə doldu,
Mahi Ramazan, xoş gəldin,
xoş gəldin.

Bu ayda cənnət qapıları açılar,
Qəlbimizdən şəri-şeytan qaçılar,
Mömin olan münafiqdən seçilər,
Mahi- Ramazan, xoş gəldin,
xoş gəldin.

Göydən yerə nazil olar mələklər,
Həm dəyişər onda çərxi fələklər,
Bu ayda qəbul olar diləklər,
Mahi -Ramazan, xoş gəldin,
xoş gəldin.

Dərdlilərin dərmanısan,
Möminlərin bayramısan,
On bir ayın sultanısan,
Mahi -Ramazan, xoş gəldin,
xoş gəldin.

Niyyətidir müsəlmanın,
Sağaldar xəstənin canın,
Dəyişər damarda qanın,
Mahi- Ramazan, xoş gəldin,
xoş gəldin.

**İMAMVERDİ ÖLMƏZ**
**Neftçala rayonu,**
**Dördlər kəndi**



**Novruz gülü**

Qar altında günəş çıxdı,
Günəş boylandı, baxdı.
Qız sinəsinə gül taxdı,
Gətirmisən bahar gülü-
Novruz gülü, Novruz gülü.

Nişan səninlə başladı,
Xonçaların tamaşadı.
Kəklik, Turacın qoşadı,
Sən gətirdin o yaz günü,
Novruz gülü, Novuz gülü.

Müjdə verdin sən bahardan,
Heç qorxmadın boran, qardan.
Nə tufandan, nə rüzgardan,
Yaz ömürlü ayı, ili,
Novruz gülü, Novruz gülü.

Sən çiçəklər padişahısan,
Bizə həmdəm, bizə yarsan.
Bəzənib yurdda qalsan,
Sən yaşadın ayı, ili,
Novruz gülü, Novruz gülü.

Həmişə erkən gəlirsən.
Hər yana ətir səpirsən,
Ürəklərdə bir nəğməsən,
Qarşıladın coşan seli-
Novruz gülü, Novruz gülü.

Bülbüllərin uzaq getməz,
Nəğmələrin sona yetməz,
Camalına günəş çatmaz,
Hər gəlişin bahar ili –
Novruz gülü, Novruz gülü.

**Tələtüm**
(lirik esse)

Hər günün öz hökmü, öz zamanı var,
Yamaca enirlər bəzən qartallar.
Qalxar səma boyu çiskin dumanlar,
Ən uca zirvədə tutacaq qərar.

Torpaq da yaşayır, səma da, göy də,
Cansızlar canlıya bəlkə can verir.
Qayıtmaq olmayır həyata bir də,
Günəş də nurunu çöllərə səpir.

Bu insan axını bir dəniz, ümman,
Ləpələr sahildə coşur, qaynayır.
Bəlkə bir dünyadır burda hər insan,
Bəşərmi yuxulu qalxıb oyanır.

Bu odlu baltanı sən çalan gecə,
Bütün yollar boyu alovlar yanır.
Demə ki, bəxtimiz dönübdür heçə.
Səmada hər zaman günəş boylanır.

Adi insanlarıq biz ki dünyada,
Bu hökmü, qərarı Yaradan verir.
Odlu ürəklərdə düşərik yada,
Həyat bir axındır gələnlər gedir.
Həyat bir axındır gələnlər gedir.

## Novruz bayramında yanğın təhlükəsizliyi tədbirləri

Yurdumuza bahar gəlir – həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət-ənənələrimizə uyğun olaraq baharın gəlişini - Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. İqtisadiyyatının gündən-günə inkişaf etdiyi müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndləri bu gün bir-birindən rəngarəng bayram tədbirləri ilə Novruzu qeyd etməyə hazırlaşır.

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, Əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafında olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, ot tayalarından, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərini və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.



Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdırlar.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s. yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatların, təhsil ocaqlarının, xüsusən də internat tipli və s. məktəblərin rəhbərləri yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

**Milli bayramımız olan "Novruz"u acı sonluqla başa vurmamaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.**

**Fövqəladə Hallar Nazirliyinin**
**Dövlət Yanğın Nəzarəti Xidmətinin**
**Muğan Regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

GÜNDOĞAR



# TOPU VURMAQ DA HÜNƏRDİR!

Rayon gənclərinin idmana marağı böyükdür. İdmanın demək olar ki, bütün sahələri rayonumuzda uğurla inkişaf edir, bu sahədə marağı olanlar seçimləri üzrə öz bacarıqlarını artırırlar. İdmanın bütün növləri maraqlı olsa da, məncə çoxlarının bütün qəlbi ilə bağlandığı - FOTBOLDUR!

Mart ayında Region Liqasında mübarizə aparan komandamız “Neftçala” III tur çərçivəsində doğma meydanda Masallı rayonunun eyni adlı komandasını qəbul edib.

Oyun 2 : 1 hesabı ilə komandamızın qələbəsi ilə başa çatıb. Fotbolçularımızı təbrik edirik, uğurlarının davamlı olmasını diləyirik.

----------------------------

# FOTBOLU SEVMƏK - HƏM DƏ YAŞATMAQDIR!







**Neftçala rayon Boyat kənd sakini II Qarabağ müharibəsi iştirakçısı Murad Hidayətzadənin təşəbbüsü və təşkilatçılığı ilə ŞƏHİDLƏRİMİZİN xatirəsinə həsr edilmiş “BAYAT ELİNİN GÖRÜŞÜ” adı görüş keçirilmişdir. Görüşdə respublikamızın üç rayonundan eyni adlı komandalarda həvəskar gənclər iştirak etmişdir. Respublikamızda eyni adı daşıyan bu komandaların futbol üzrə görüşü 24 mart 2025-ci ildə Neftçala rayonunda keçirilmişdir. Böyük ruh yüksəkliyi ilə keçirilən görüşün nəticələrinə görə:**

**Boyat (Ağcabədi) - Boyat (Neftçala) - 4:1,**
**Boyat (Neftçala) - Boyat (Ucar) - 5:3,**
**Boyat( Ağcabədi) - Boyat (Ucar) - 4:0,**
**Görüşün nəticələrindən göründüyü kimi:**

**Boyat Ağcabədi - I yer,**
**Boyat Neftçala - II yer,**
**Boyat Ucar -- II yer.**

**Xalqımızın tarixi birliyini müxtəlif istiqamətlərdə yaşatmaq, milli ruhu yüksəltmək, birlik, bərabərlik, qarşılıqlı hörmət və dostluqla davam etmək gözəl təşəbbüsdür.**

**Bütün iştirakçılara uğurlar diləyirik.**

# BÖYÜKLƏR YOLU GÖSTƏRƏR, UŞAQLAR UĞURLA GÜLÜMSƏYƏR!
## TƏBRİK EDİRİK, BOL - BOL UĞURLAR DİLƏYİRİK.

**“Gündoğar” qəzeti Bankə qəsəbəsindən qəzetimizin həvəskar köməkçisi Səidə Ağayevadan məlumatı aldıqda, çox sevindi. Əlbəttə ki, gələcəyimiz olan uşaqların sağlam həyat tərzi hər birimizin istəyidir, arzusudur. Biz də bu məktəblilərin sevincinə qoşularaq onların uğurlarını rayonumuzun tarixi salnaməsi, yaddaşı olan “Gündoğar” vasitəsilə təbliğ edir, sizi bütün oxucularımıza təqdim edirik.**

**Bankə qəsəbə İdman zalının yetirmələri olan bir qrup uşaqlar 22 fevral 2025 - ci ildə Bakı şəhərində keçirilən rayonlararası idman yarışında qalib gələrək qəsəbəmizin adını yüksəltmişlər. Onların üzərində zəhməti olan məşqçi müəllimləri - Musayev Mirxalid və Səfərov Elxan müəllimi təbrik edirik.**
**Qeyd edək ki, qalib idmançılarımızdan iki nəfəri kitabxanamızın oxucularıdır. Onları 5 Mart “Bədən tərbiyəsi və İdman Günu” münasibətilə təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq. Yarışda rayonumuzdan 10 nəfər idmancı iştirak etmişdir. Onlardan altı nəfəri qalib gələrək diplom və medallarla təltif olunmuşdur.**
**Oxucularımız Ağayev Mirağa və Məmmədli Mirzağa II yer, Mikayıllı Hüseyn, Musayev Mirxamməd, Əhmədli Nurağa və Əmirli Miraslan III yerə layiq görülmüşlər.**

**SƏİDƏ AĞAYEVA,**
**Şirvan - Salyan Regional Mədəniyyət İdarəsi,**
**Neftçala rayon MKS-in Bankə qəsəbə 1 saylı kitabxanasının müdiri.**




*Şəkildə: Sağdan Mirağa Ağayev və Mirzağa Məmmədli.*

GÜNDOĞAR
GÜNDOĞAR

**Baş redaktor**
B.H. NİFTALİYEVA

Ünvan:Neftçala şəhəri, H. Əliyev prospekti 38
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

SEVDİYİN MƏŞĞULİYYƏT HƏM DƏ SƏNİN HƏYAT YOLUNDUR!

Qəzet “Gündoğar”ın redaksiyasında yığılıb, səhifələnib, “AZƏRMedia” mətbəəsində çap olunmuşdur. Tiraj:250